**BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**İKİNCİ İCLAS**

**HESABAT MƏRUZƏSİ**

# "TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA TÜRK ŞURASI, TÜRKPA VƏ TÜRKSOY-UN YERİ VƏ ROLU"

## I. GİRİŞ

1. 20-ci əsrin sonlarında baş vermiş geosiyasi dəyişikliklər nəticəsində dünyanın siyasi xəritəsində yeni müstəqil Türkdilli dövlətlərin yaranması qlobal siyasi arenada Türk dünyası üçün əhəmiyyətli bir yer qazandırmışdır.

2. Ötən əsrin 90-cı illərindən başlayaraq, Türkdilli dövlət başçılarının zirvə görüşləri ortaq mənəvi irsin qorunması və təbliği baxımından mühüm rol oynamışdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılmasından sonra bu formatda olan əməkdaşlıq yeni təşkilati mərhələyə daxil olmuşdur.

3. Türkdilli xalqları ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər, etnik əlaqələr birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün əsas təməldir. Türkdilli dövlətlər arasında əməkdaşlıq bütün sahələrdə genişlənir və dərinləşir. Beynəlxalq Türk Mədəniyyət Təşkilatı olan TÜRKSOY, Türk dünyasının milli-mənəvi irsinin qorunması, inkişafı və təbliği istiqamətində mühüm vəzifəni həyata keçirir.

4. Türkdilli dövlətlər coğrafi-strateji baxımından dünyanın əhəmiyyətli bölgəsində yerləşir. TÜRKSOY-un ardından Türk Şurası və TÜRKPA-nın yaradılması regionda Türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyəti üçün önəmli təkan verir, regional təhlükəsizlik təhdidlərinə qarşı mübarizə aparır və ticarət və investisiya imkanlarının möhkəmlənməsinə köməklik edir.

## II. TÜRK ŞURASI, TÜRKPA VƏ TÜRKSOY-UN FƏALİYYƏTLƏRİ

### *Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ)*

5. Qısaca olaraq Türk Şurası kimi tanınan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ), Türkdilli Ölkələr arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə beynəlxalq hökümətlərarası təşkilat kimi Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Turkiyə tərəfindən 2009-cu ildə yaradılıb. Təşkilatın Normativ sənədi olan Naxçıvan Sazişi, dörd üzv dövlətin prezidentləri tərəfindən 2009-cu il oktyabrın 3-də imzalanıb.

6. Dövlət Başçılarının Şurası təşkilatın ən yüksək qərar qəbul edən orqandır, və adətən ildə bir dəfə toplanır. Digər əsas orqanlara isə Xarici İşlər Nazirlərinin Şurası, Ağsaqqallar Şurası və fəaliyyətdə olan sədr daxildirlər.

7. Türk Şurasının əsas məqsədi Türkdilli dövlətlər arasında hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi, regionda və bütövlükdə dünyada sülh və sabitlik üçün birgə fəaliyyət imkanlarının daha da inkişaf etdirilməsidir. Ortaq iqtisadiyyatları, dinamik əhali strukturları və regionda fəal iştirakçı kimi oxşarlıqları onların arasında əməkdaşlığın genişləndirilməsi üçün güclü stimul verir.

8. TÜRKSOY-yun əsas məqsəd və vəzifələri qısaca aşağıdakı kimi ifadə oluna bilər:

- Tərəflər arasında qarşılıqlı etimadın gücləndirilməsi;
- Regionda və ondan kənarda sülhün saxlanması;
- Xarici siyasət məsələləri üzrə ortaq mövqelərin axtarışı;
- Beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və sərhəddən kənar cinayətlərlə mübarizə aparmaq üçün tədbirlərin əlaqələndirilməsi;
- Ümumi maraq doğuran bütün sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi;
- Ticarət və investisiya üçün əlverişli şəraitin yaradılması;
- Hərtərəfli və balanslaşdırılmış iqtisadi artım, sosial və mədəni inkişaf;
- Hüquqi dövlət, insan hüquqlarının müdafiəsi və səmərəli idarəetmə məsələlərinin müzakirəsi;
- Elm, texnologiya, təhsil və mədəniyyət sahələrində qarşılıqlı fəaliyyətin genişləndirilməsi;
- Kütləvi informasiya vasitələri və geniş rabitənin qarşılıqlı fəaliyyətinin gücləndirilməsi;
- Hüquqi informasiya mübadiləsi və hüquqi əməkdaşlığın genişləndirilməsi.

9. Əvvəlki illərdə keçirilmiş Zirvə görüşlərinin yeni formatının davamı kimi Türk Şurasının 1-ci zirvə toplantısı 21 oktyabr 2011-ci il tarixində Almatıda keçirilmişdir. Bu iqtisadi əməkdaşlıq məsələlərinə yönəlmiş ilk zirvə görüşü olmuşdur. Dövlət başçıları İqtisadiyyat Nazirləri tərəfindən təqdim edilən iqtisadi əməkdaşlıqla bağlı ortaq proqramları təsdiq etmiş və onların səmərəli şəkildə həyata keçirilməsi üçün müvafiq orqanlara göstəriş vermişlər. Bu proqrama uyğun olaraq, iqtisadi əməkdaşlıq sahəsində "İnvestisiya mühitinin yaxşılaşdırılması", "İqtisadiyyatın şahələndirilməsi üzrə tədbirlər ", "Nəqliyyatın İnkişafı" və "Sahibkarlıq - iqtisadi əlaqələrin əsası kimi" xüsusi işçi qrupları yaradılmışdır. Bu səyləri gücləndirmək üçün özəl tərəfdaşlıq modeli vasitəsilə birgə "Türk İş Şurası" da Almatı Zirvə görüşündə yaradılmışdır.

10. Siyasi sahədə, Xarici İşlər Nazirləri Şurasının 2011-ci ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası çərçivəsində keçirilmiş qeyri-rəsmi görüşündə əldə edilmiş razılaşmayla, Katiblik Almatı Sammitindən sonra üzv ölkələrdə keçirilən seçkilərlə bağlı müşahidə missiyası təşkil etmək təşəbbüsünü irəli sürmüşdür. Bu istiqamətdə ilk missiya 30 oktyabr 2011-ci tarixində Qırğızıstan Respublikasında keçirilmiş prezident seçkiləri zamanı təşkil edilmişdir. İkinci müşahidəçi missiyası 15 yanvar 2012-ci il tarixində Qazaxıstan Respublikasında keçirilmiş növbədənkənar parlament seçkiləri zamanı təşkil edilmişdir.

11. Katiblik texniki/mütəxəssis səviyyəsində iki görüş və Nazirlər səviyyəsində üç görüş keçirmişdir; əlavə olaraq yüksək məmurlar komitəsinin müntəzəm üç görüşünü və Ağsaqqallar Şurasının bir görüşünü təşkil etmişdir.

12. 23 avqust 2012-ci il tarixində Bişkek şəhərində keçirilmiş Türk Şurasının İkinci Zirvə görüşü iqtisadi əməkdaşlıq sahəsində qəbul edilmiş əhəmiyyətli qərarlarla yadda qalmışdır. Türkiyə-Gürcüstan-Azərbaycan-Qazaxıstan və sonrakı istiqamətdə nəqliyyat dəhlizinin yaradılması qərara alınmışdır. Zirvə görüşündə münasib vaxtlarda Türk Şurasına üzv ölkələrin nəqliyyat nazirləri və gömrük orqanları rəhbərlərinin görüşünün keçirilməsi barədə məsələlər ətraflı müzakirə olunmuşdur. Zirvə görüşünün mövzusu "Təhsil, Elm və Mədəniyyət" olaraq elan edilmişdir. Ən önəmli layihələr arasında Astanada Türk Akademiyasının və Bakıda isə Türk Mədəniyyəti və İrsi Fondunun təsis edilməsi haqqında razılıq əldə olunmasını qeyd etmək olar.

***Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA)***

13. Türkdilli Ölkələrin Parlament Assambleyası, TÜRKPA, 2008-ci il noyabr ayının 21-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament sədrlərinin imzaladığı İstanbul Sazişi ilə təsis edilmişdir. TÜRKPA-nın fəaliyyəti üzv ölkələrin siyasi, iqtisadi və mədəni sahələrdə qarşılaşdığı çağırışların öhdəsindən gəlmək üçün parlamentlərarası əməkdaşlıq çərçivəsində birgə fəaliyyət qurmaq niyyətinə əsaslanır.

14. TÜRKPA-nın məqsəd və vəzifələri əsas etibarilə Türk Şurasının missiyası və vəzifələri ilə bənzərdir. Eyni zamanda, Türkdilli dövlətlərin əməkdaşlıq prosesinin parlament ölçüsü olaraq, TÜRKPA öz fəaliyyətini üzv ölkələrin mədəni, social, elmi, təhsil, iqtisadi və hüquqi sahələrdə qanunvericiliklərinin mümkün qədər yaxınlaşdırılması istiqamətində qurur.

15. Türk Şurası kimi, TÜRKPA da üzv ölkələrində seçkilərin müşahidələrini həyata keçirir. 2010-cu ildən bəri TÜRKPA Beynəlxalq Müşahidəçilər Missiyası dörd üzv ölkədə keçirilmiş prezident və parlament sesçkilərini müşahidə etmişdir. TÜRKPA-nın üzv ölkələrdəki seçkiləri müşahidə mandatı Assambleyanın ictimai idarələrlə əməkdaşlığını və üzv ölkələrdəki milli seçki proseslərini hərtərəfli müşahidə səylərini genişləndirmişdir.

16. İstanbul Sazişinə uyğun olaraq, parlamentlərarası əməkdaşlığı genişləndirmək məqsədi ilə, TÜRKPA üzv ölkələr arasında təcrübə-mübadilə proqramları həyata keçirmişdir və bu proses müvəffəqiyyətlə davam etdirilir.

17. TÜRKPA-nın dörd daimi komissiyası artıq keçən ildən öz fəaliyyətlərinə başlamışdır. Komissiyaların ilk sənədləri 2012-ci ildə Bişkekdə keçirilmiş 3-cü Plenar iclasda Assambleya tərəfindən qəbul edilmişdir. Mədəni, social və humanitar məsələlər üzrə komissiya Türk sivilizasiyası və onun mədəni dəyərlərinin öyrənilməsi sahəsində birgə proqramların təşkili məsələsinə toxunmuşdur. İqtisadiyyat, Ticarət və Maliyyə məsələləri Komissiyası enerji, nəqliyyat və turizm sahələrində birgə layihələrin həyata keçirilməsi, TÜRKPA-nın nəzdində Biznes Şurasının yaradılması və üzv ölkələrdə azad iqtisadiyyat və ticarət zonalarının yaradılması imkanlarını nəzərdən keçirmişdir. Hüquq məsələləri Komissiyası üzv ölkələrin konstitusiya sistemlərində parlamentlərin rolunu müzakirə etmişdir.

18. Hüquqi sahədə informasiya mübadiləsi məqsədinə uyğun olaraq TÜRKPA üzv ölkələrin hüquqi sənədlərinin nəşri ilə bağlı təşəbbüş irəli sürmüşdür. İlk mərhələ olaraq, Türkmənistan və Özbəkistan da daxil olmaqla Türkdilli ölkələrin konstitusiyaları, eyni zamanda TÜRKPA-nın hüquqi sənədləri TÜRKPA Beynəlxalq Katibliyi tərəfindən təşkilatın rəsmi dillərinə tərcümə edilmiş və nəşr edilmişdir.

***Türk Mədəniyyəti Beynəlxalq Təşkilatı (TÜRKSOY)***

19. 12 iyul 1993-cü ildə yeni müstəqillik əldə etmiş beş Türk Respublikası Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanla birlikdə Türkiyənin mədəniyyət nazirləri Almatı şəhərində TÜRKSOY-un fəaliyyət prinsipləri və təsis edilməsi haqqında razılaşma imzaladılar.

20. TÜRKSOY-un əsas məqsəd və hədəflərini qısa olaraq aşağıdakı kimi göstərmək olar:

• Türkdilli xalqlar və millətlər arasında dostluq əlaqələri yaratmaq və ortaq Türk mədəniyyətini, dilini, tarixini, incəsənətini, adət və ənənələrini araşdırmaq, ortaya çıxarmaq, inkişaf etdirmək, qorumaq və eyni zamanda onları gələcək nəsillərə ötürmək və daim yaşatmaq.

• Türk Dünyası ərazilərində ortaq dil və əlifbanın istifadəsi üçün lazımi şərait yaratmaq.

• Türk Dünyası xalqlarının ortaq keçmişini və onun tarixi, dili, ədəbiyyatı, mədəniyyəti və incəsənətini araşdırmaq məqsədi ilə elmi tədqiqatlar təşkil etmək.

• Milli tarixin, ana dilinin, ədəbiyyatın, mədəniyyətin, incəsənətin, adət və ənənələrin gələcək nəsillərə ötürülməsi üçün şərait yaratmaq.

21. TÜRKSOY-un missiyası bəşəriyyətə və dünya sivilizasiyasına tövfə verməkdir; Türk mədəni irsini ümumdünya səviyyəsində təqdim etmək və Türkdilli xalqlar arasında ortaq mədəni əlaqələri gücləndirmək. Burada əsas məqsəd musiqidən başlayaraq teatr və kinoya qədər, memarlıqdan qeyri-maddi mədəni irsə qədər, ədəbiyyatdan təsviri incəsənətə qədər olan müxtəliflik və originallığı bir araya gətirmək, biri-birləri ilə tanış etmək və bu müxtəliflik və originallığı gələcək nəsillərə ötürmək və bütün dünyaya təbliğ etmək məqsədi ilə inkişaf etdirməkdir.

22. Təsis edilməsindən budünə qədər, TÜRKSOY öz fəaliyyətini bir neçə istiqamətdə həyata keçirmişdir. İlk olaraq, rəssamların sərgisi, musiqi festivalları, heykəltəraş və fotoqrafçıların görüşləri kimi mədəniyyət və incəsənət sahəsində konkret sahələrə aid tədbirlər həyata keçirilmişdir. Bu fəaliyyətlər TURKSOY-un Türk mədəniyyəti və sivilizasiyasının öyrənilməsi və araşdırılması istiqamətində elmi tədqiqatlarla tamamlanmışdır. Bu konteksdə, TÜRKSOY-un ən önəmli təşəbbüsləri Türk dünyasının Memarlıq və Şəhər planlama konqresinin, qeyri-maddi mədəni irslə bağlı seminarlar və Türk əfsanələri ilə bağlı simpoziumun təşkili olmuşdur. TÜRKSOY-un ən yeni təşəbbüslərindən biri Türk xalqlarının mədəni inteqrasiya prosesini genişləndirmək məqsədi ilə hər il bir şəhərin Türk Dünyasının paytaxtı olaraq seçilməsidir. 2012-ci ildə Türk dünyasının paytaxtı Astana şəhəri olmuşdur və bu çərçivədə 2013-cü ildə Türk dünyasının paytaxtı olaraq Eskişəhər, 2014-cü ildə isə Kazan şəhəri seçilmişdir.

23. TÜRKSOY-un ikinci istiqaməti öz kütləvi informasiya vasitələri ilə fəaliyyətini genişləndirməkdir. Bu baxımdan, TÜRKSOY media sahəsində, balet, təsviri incəsənət, ədəbiyyat, teatr və kino sahələrində bir çox mükafatlar təsis etmişdir. Əlavə olaraq, Türk Music Box kanalı TÜRKSOY-un dəstəyi ilə yaradılmışdır.

24. TÜRKSOY-un fəaliyyətinin üçüncü istiqaməti Türkdilli ölkələrin akademik icmaları arasında mübadilə proqramlarının təşkili sahəsində universitetlərlə əməkdaşlıqdır. Hal-hazırda, TÜRKSOY bu cür mübadilə proqramlarını Türkiyə universitetləri və Rusiya Federasiyasının Türkdilli subyektləri ilə inkişaf etdirir.

## III. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

25. Təşkilatların müəyyən ölkələri birləşdirməsinə baxmayaraq, onlar digər ölkə və təşkilatlara qarşı ekskluziv yanaşma nümayiş etdirmirlər. Əksinə, təşkilatlar regiondakı digər dövlətlər, milli parlamentlər və beynəlxalq təşkilatlarla əlaqələr qurmaq və inkişaf etdirməkdə maraqlıdırlar. Onlar Türkdilli ölkələr arasında əlaqələri və həmrəyliyi daha da dərinləşdirərək, Mərkəzi Asiya, Qafqaz və Orta Şərqdə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək üçün yeni regional vasitə kimi xidmət etmək niyyətindədirlər. Türk Şurası ilə TÜRKPA-nın nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı iqtisadi, siyasi və sosial sahələrdə dialoqun inkişafına töhfə verir.

26. Türk Şurası bütün təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq etmək niyyətindədir. Şura İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə mükəmməl dialoq qurmuşdur. TÜRKPA qlobal səviyyədə dialoqun gücləndirilməsi üçün ortaq parlamentlərarası platformanın gücləndirilməsinə xüsusi önəm verir. Nəticədə, Assambleya Beynəlxalq-Parlamentlərarası Birlik (IPU), İslam Əməkdaşlıq Təşkilatı Parlament Birliyi və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Üzrə Müşavirə tərəfindən müşahidəçi statusu almışdır.

27. Baxmayaraq ki, Türk Şurası və TÜRKPA əsasən iqtisadi, sosial və mədəni sahələrdə fəaliyyət göstərir, bu təşkilatlar Avrasiya regionunda təhlükəsizliyin təmin edilməsinə xidmət edən sub-regional təşkilatlar kimi müəyyənləşdirilə bilər. Bu baxımdan, hər iki təşkilat ATƏT və onun institutları ilə əməkdaşlığa xüsusi önəm verir.

28. Türk Şurası və TÜRKPA-nın nümayəndələri qeyd etmişlər ki, onların təşkilatları ATƏT-in vəzifə və məqsədlərinə nail olması üçün öz tohfələrini verməyə hazırdılar. Qeyd edilmişdir ki, yaradılmış bərabərlik və şəffaflıq prinsipləri əsasında, təşkilatlar ATƏT-lə qarşılıqlı şəkildə gücləndirilmiş əlaqələrin yaradılması istiqamətində çevik yanaşmanı dəstəkləyəcəklər. Hər iki təşkilat ATƏT-in fəaliyyətlərində iştirak edir. Türk Şurası və TÜRKPA-nın Baş katibləri ATƏT Nazirlər Şurasının 2011-ci ildə keçirilmiş görüşlərində iştirak etmişlər. Eyni zamanda ATƏT Daimi Şurasının üzlərini təşkilatın məqsədləri, vəzifələri və missiyası ilə bağlı məlumatlandırmaq məqsədi ilə ATƏT Daimi Şurasının görüşlərinə də qatılmışlar. Son iki ildə TÜRKPA ATƏT PA-nın illik və qış sessiyalarında qonaq qismində iştirak etmişdir.

29. TÜRKPA Avropa Parlamenti, İƏT, GUAM, MDB PA, Baltik Assambleyası və QDİƏT Parlament Assambleyası kimi bir sıra hökumətlərarası və parlamentlərarası təşkilatlarla əlaqələri inkişaf etdirir.

30. TÜRKPA-nın təşkil etdiyi konfranslar və forumlar digər ölkələr, regional institutlar və qeyri-hökumət sektoru ilə əlaqələrin genişləndirilməsinə tohfə verir. Bugünə qədər, Assambleya parlament diplomatiyasının roluna aid iki konfrans və 21-ci əsrdə qadın siyasətçilərinin roluna aid bir konfrans təşkil etmişdir. TÜRKPA tərəfindən təşkil edilən sonuncu tədbir 15-16 oktyabr 2012-ci il tarixində İstanbulda həyata keçirilən "Dövlətlərarası əməkdaşlığın inkişafı prosesində gənc liderlərin rolu" mövzusunda Beynəlxalq Forum olmuşdur. Forumda Rusiya, Ukrayna, Litva, Moldova, Rumıniya, Serbia, Bosniya və Hersoqovina, Hindistan, Pakistan, Mərakeş və Misir daxil olmaqla 20 ölkədən nümayəndələr iştirak etmişdir.

31. Beynəlxalq əməkdaşlıq çərçivəsində, TÜRKSOY qeyri maddi mədəni irsin qorunması ilə bağlı UNESCO ilə birgə fəaliyyətlər həyata keçirməklə əlaqələri inkişaf etdirir. Bu çərçivədə, internet saytı yaradılmışdır. İlk dəfə olaraq, TÜRKSOY və UNESCO Milli Komitələri arasında sıx əməkdaşlığa imkan yaratmaq məqsədi ilə UNESCO Milli Komitələrinin görüşləri keçirilmişdir. UNESCO-dan ilhamlanaraq, TÜRKSOY hər ili Türk dünyasından olan mədəniyyət sahəsindəki görkəmli bir şəxsə həsr edir.

32. TÜRKSOY tərəfindən Türk mədəniyyətini təbliğ etmək məqsədilə təşkil olunan digər tədbirlərə aid UNESCO qərargahında və ABŞ-da keçirilən Novruz şənliklərini, Avropa Şurasının qərargahında, Almaniyada, Lüksemburqda, Litvada və İtaliyada təşkil edilən rəssamların sərgilərini qeyd etmək olar.

## IV. ÜÇ TƏŞKİLAT ARASINDA QARŞILIQLI ƏLAQƏLƏR VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

33. Türkdilli dövlətlər arasında iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığa dair bir model formalaşdırmaq üçün üç təşkilat bir-biri ilə əməkdaşlıq edir. Bu baxımdan, Türk Şurası və TÜRKSOY ilə əlaqələr, bir-birlərinin tədbirlərində qarşılıqlı surətdə iştirakları və fəaliyyətlərinin əlaqələndirilməsi üçün əsasın yaradılması vasitəsilə davam etdirilir. Türk Şurası və TÜRKPA öz sənədlərində bir-birilərin fəaliyyətlərinə dəstək etdiklərini bəyan edirlər. Belə ki, TÜRKPA 2-ci plenar sessiyasında qəbul edilən Astana Bəyannaməsində Türk Şurası və TÜRKSOY ilə

qarşılıqlı əlaqələrinin effektivliyinə töhfə verməklə zirvə bəyannamələrinin icra edilməsində hazır olduğunu ifadə etmişdir.

34. Türk Şurasının Zirvə Bəyannamələri Türk dövlətlərin arasında siyasi dialogun gücləndirilməsi istiqamətində parlamentlərarası ölçüsünün vacibliyini vurğulayırlar. Dövlət başçıları parlamentlər arasında əməkdaşlığının inkişafına TÜRKPA-nın töhfəsini yüksək qiymətləndirmişdirlər. Ümumi dəstəknən yanaşı, Türk Şurası öz işinə təkan vermək üçün TÜRKPA-nı üzv dövlətlərin parlamentlərində paralel olaraq Şuranın hədəfləri ilə bağlı mövzuların müzakirəsini təşkil etməyə çağırmış, və həmçinin Türk Şurası və TÜRKPA-nın ATƏT çərçivəsində daha da tanıdılması məqsədilə birgə səylərin gücləndirilməsi barədə xarici işlər nazirlərini təlimatlandırmışdılar. Həmin müddəalar 2012-ci il 23 avgust tarixində keçirilən 2-ci Zirvə Toplantısında qəbul olunmuş Bişkek Bəyannaməsində öz əksini tapmışdı.

35. Türk Şurası ümumi dəyərlərin müəyyən edilməsi, zənginləşdirilməsi, yayılması və təşviq edilməsi, eləcə də türkdilli ölkələr və xalqlar arasında mədəni münasibətlərin dərinləşdirilməsi vəzifəsinin yerinə yetirilməsi ilə bağlı TÜRKSOY təşkilatının mühüm rolunu vurğulamışdır. Bundan əlavə, Türk Şurası TÜRKSOY-un bir neçə təşəbbüslərinə dəstək vermişdir. Onların arasında hər il bir şəhərin Türk Mədəniyyətinin paytaxtı kimi elan edilməsi və Türk irsinə aid olan nümunələrinYUNESKO-ya daxil edilməsinə dair birgə təşəbbüsləridir.

36. Eyni zamanda, üç təşkilat arasında qarşılıqlı əlaqələr birgə layihələrin həyata keçirilməsi və ümumi fəaliyyətin institutlaşdırılması vasitəsilə gücləndirilə bilər. Bu cür qarşılıqlı əlaqələr beynəlxalq ictimaiyyətlə münasibətlərin həyata keçirilməsi üçün səylərin və öhdəçiliklərin möhkəmlənməsinə töhfə verəcəkdir.

37. Çoxtərəfli əməkdaşlıq prosesi çərçivəsində parlament və ənənəvi diplomatiya arasındakı qarşılıqlı fəaliyyət yeni bir həqiqətə çevrildiyi üçün, Türk Şurası və TÜRKPA arasındakı sıx əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə, iki təşkilat arasında gücləndirilmiş əlaqələr Türkdilli dövlətlər arasında müxtəlif səviyyələrdə fikir mübadiləsi və siyasi dialoqun aparılmasını təşviq edir.

38. Üç təşkilat arasındakı institusional əməkdaşlıq ticarət və iqtisadiyyat sahəsində, və xüsusilə, sənaye, kənd təsərrüfatı, nəqliyyat və rabitə sahələrində qarşılıqlı əlaqələrin inkişafına təkan verəcəkdir. Türk xalqlarının yaşadığı regionların coğrafi və strateji baxımından əhəmiyyətinin artması, yeni çağırışlar qarşısında əməkdaşlıq və sıx təşkilatlanmaq əhəmiyyətini ortaya çıxartmışdır. Türk xalqları arasında inteqrasiya prosesinin müntəzəm xarakter alması və çoxtərəfli əlaqələrin gücləndirilməsi üç təşkilat arasındakı fəaliyyətin sıx şəkildə əlaqələndirilməsi ilə şərtlənir.